


# HƏCC ƏMƏLLƏRİNİN MÜXTƏSƏR İZAHI

**MÜQƏDDİMƏ**

Uca Allah «Ali-İmran» surəsinin 97-ci ayəsində buyurur: **«... Oraya (Məkkəyə) getməyə gücü çatan şəxsin o Evi (Kəbəni) həcc etməsi (ziyarət etməsi) insanlar üzərində Allahın bir haqqıdır. …»** Lüğətdə **«qəsd etmək, niyyət etmək, düşüncəsində olmaq»** mənasını verən «həcc» sözü şəri termin olaraq **«Allah rizası üçün Allahın Beytülhəramını (Kəbəni) qəsd etmək və müqəddəs şəriətdə yer alan məxsus ibadətləri icra etmək»** mənasını verir.

Həcc füruüddinin[1] beşinci maddəsi olub dinin zəruri vacibatlarından biridir. Həccin vacib olduğunu inkar edən kafir olub İslamdan çıxar. Allah həcc ziyarətinə getmə gücünə sahib olan şəxsə onu ömründə bir dəfə vacib etmişdir. Bu ziyarət «hiccətül-İslam» adlanır. Allahın hər əmrində olduğu kimi həccin vacib edilməsində də bir çox hikmətlər və faydalar vardır.

Quranın **«Burada[2] kor olan[3] axirətdə də kor olar və daha zəlalətli yolda olar!»[4]** ayəsi haqqında İmam Sadiqdən belə nəql olunur: **«Bu, həcc ziyarətini, yəni hiccətül-İslamı ölənə qədər təxirə salan**

---
[1] İslamın ikinci dərəcəli ehkamları
[2] Yəni dünyada
[3] Yəni Allahın dəlillərini görməyən
[4] «İsra», 72

**şəxsdir!»** İmamın əshabələrindən biri ondan soruşdu: **«Tacir həcc ziyarətini təxirə sala bilərmi?»** İmam buyurdu: **«O, üzrlü sayılmır. Əgər ölsə, İslamın qanunlarından bir qanunu tərk etmişdir».**

Allah Rəsulu buyurmuşdur: **«Kim ölənə qədər «həccə gedəcəm», – deyə-deyə həccə getməsə, Allah qiyamət günündə onu yəhudi, yaxud xristian olaraq dirildər!»**[5]

Allah həcc ziyarəti üçün böyük bir savab vəd vermişdir. Hədisi-şərifdə bu barədə söylənilir: **«Kim həcc etsə və həcc ziyarətində olarkən günah etməsə və qadınla cinsi əlaqəyə girməsə, həcdən, anası onu doğduğu gündə olduğu kimi çıxar».**[6] Başqa bir hədisdə isə deyilir: **«İxlasla yerinə yetirilən həcc ziyarətinin mükafatı Cənnətdir!»**

Həcc insanın Allahdan başlayıb ilahi xətt üzərində hərəkət edən və Allahda sona çatan həyatını müxtəsər şəkildə ifadə edən ruhi bir köç və müsafirətdir ki, hacı ondan öz həyatı üçün Allaha itaət edib haramlardan çəkinməkdə ona kömək edən şeyləri azuqə yığır. Həcc ibadəti əslində hamı üçün bütün mərtəbələrdə bir qulluq, bir bəndəçilikdir. Məsələn, bir nəfər bayram kimi xüsusi bir gündə bir nazir və bir dövlət məmuru kimi ölkənin prezidentinin bayramına getdiyi və lütfünə nail olduğu kimi, bir hacı nə qədər adi xalq kütləsindən biri olsa da, mərtəbələr qət etmiş və bütün mərhələləri keçmiş bir Allah dostu və bir vəli kimi Rəbbinə doğru üz tutmuşdur.

Həccin digər yönü müsəlmanların ictimai, siyasi və iqtisadi yaşayışı ilə əlaqəlidir. Həcc dünya miqyasında böyük əhəmiyyət daşıyan müsəlmanlararası bir konqresdir. Buna görə də dünyanın müxtəlif yerlərindən Allah adı ətrafında bir yerə toplaşan müsəlmanlar dinləri və dünyaları üçün faydalı olan şeyləri öz aralarında danışmaqla bu ziyarətdən bəhrələnməlidirlər. Allah-Taala buyurur: **«İnsanlar arasında həcci yüksək səslə elan et ki, onlar sənin yanına piyada, hər uzaq yoldan hər cür arıq miniklə gəlsinlər. Belə ki, öz mənfəətlərinin şahidi olsunlar. ...»**[7]

İmam Sadiqdən nəql olunan və həccin bəzi hikmətlərini bəyan edən hədisdə deyilir: **«İnsanlar bir-birini tanısınlar deyə Allah məşriqdəki və məğribdəki insanların bir yerə yığılmasını istəmişdir».**

Həccin şəri yönünə gəlincə, Allah həcc üçün çoxlu şəri hökmlər qoymuşdur ki, hacı əməlində ibadətin batil olmasına səbəb olacaq xətanın olmamasına əmin olmaq üçün bu hökmləri bilməlidir. Həmin hökmlər müxtəsər şəkildə bu kitabda yer almışdır. Kitab həcmcə kiçik olsa da, həcc əməllərinin ilk dəfə həcc ziyarətinə gedən şəxslər tərəfindən öyrənilməsi baxımından çox faydalıdır. Allahdan istəyirik ki, bu xidməti faydalı qərar versin. Həqiqətən, O, Eşidəndir və duaları qəbul edəndir.

**S. M. Fəzlullahın Azərbaycan üzrə təmsilçiliyi**
**Vəkil: Xəyyam Qurbanzadə**

## QURAN-KƏRİMDƏKİ HƏCC AYƏLƏRİ

### «BƏQƏRƏ» SURƏSİNDƏKİ AYƏLƏR

**«(Ya Mühəmməd!) Yadına sal ki, biz Evi (Kəbəni) insanlar üçün qayıdış və əmin-amanlıq yeri etdik. Siz də İbrahimin məqamını özünüzə namazgah edin (orada namaz qılın). İbrahimə və İsmayıla da: «Evimi təvaf edənlər, orada ibadətə çəkilənlər, rüku və səcdə edənlər üçün təmizləyin!» – deyə əmr etdik. (125)**

**Yadına sal ki, İbrahim: «Ey Rəbbim buranı təhlükəsiz və asudə bir şəhər et, əhalisinin Allaha və axirət gününə inananlarına cürbəcür meyvələrdən ruzi ver!» – deyə dua etdikdə, Allah: «Kafir olanı az bir müddət faydalandırar, sonra onu atəşin əzabına sürükləyərəm. Ora nə pis varılacaq bir yerdir» – deyə buyurdu. (126)**

**Onu da yadına sal ki, İbrahim və İsmayıl Kəbənin bünövrəsini ucaltdıqları zaman belə dedilər: «Ey Rəbbimiz, bizdən bunu qəbul et, Sən, həqiqətən, Eşidənsən, Bilənsən!» (127)**

**Ey Rəbbimiz, bizim hər ikimizi sənə təslim olan qıl və nəslimizdən də Sənə təslim olan ümmət meydana çıxart. Bizə həcc əməllərini və ibadət qaydalarını göstər, tövbəmizi qəbul et. Həqiqətən, Sən Təvvabsan (tövbələri qəbul edənsən), Rəhimsən! (128)**

**Ey Rəbbimiz, onların içərisindən özlərinə elə bir elçi göndər ki, onlara Sənin ayələrini oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları təmizləsin. Həqiqətən, Sən Əzizsən (yenilməz qüvvət sahibisən), Həkimsən! (129)**

---

[5] «Mizanul-Hikmə»; c. 2. s. 706. «Biharul-Ənvar»dan nəql olunub.

[6] Yəni onun bütün günahları bağışlanar – X.Q.

[7] «Həcc», 27, 28

* * *

**«Həqiqətən, Səfa və Mərvə Allahın əlamətlərindəndir. Kim Evi həcc edərsə, yaxud ümrə edərsə, bunları təvaf etməsində (yəni onlar arasında səy etməsində) heç bir günah yoxdur. Kim daha xeyirli bir işi könüllü olaraq görərsə, Allah Şakirdir (o işin əvəzini verəndir) və Biləndir» (158)**

* * *

**«Allahdan ötrü həcc və ümrəni tamamlayın, (ehram bağladıqdan sonra) əgər orada sizə maneçilik olarsa, (sizə) müyəssər olan bir qurbanlıq göndərin, qurbanlıq öz yerinə çatıncaya qədər başınızı qırxdırmayın. Sizdən kim xəstə olarsa, yaxud başından əziyyət çəkərsə, belə şəxs fidyə olaraq oruc tutmalı, yaxud sədəqə verməli, yaxud qurban kəsməlidir. Əmin-amanlıqdasınızsa, həccə qədər ümrə ziyarətindən faydalanan şəxs (ona) müyəssər olan bir qurban kəsməlidir. Qurbanlıq tapmayan şəxs həcdə üç gün və qayıdandan sonra yeddi gün oruc tutmalıdır ki, bu da tam on gün edər. Bu (yəni təməttö ümrəsi) əhli-əyalı Məscidülhəramda olmayanlara aiddir. Allahın yasaq etdiklərindən qorunun və bilin ki, Allahın əzabı şiddətlidir». (196)**

**Həccin vaxtı məlum olan aylardır. Kim o aylarda həcci vacib edərsə (yəni həcc əməlini başlamaqla bu işi özünə vacib edərsə), həcdə olarkən qadınla yaxınlıq etmək, itaətdən çıxmaq (yəni günaha mürtəkib olmaq) və mübahisə etmək, dalaşmaq (yəni «And olsun Allaha yox!» və «and olsun Allaha bəli!» – demək) yoxdur. Allah gördüyünüz hər xeyir işi bilir. Tədarük görün. Ən xeyirli azuqə təqvadır. Ey ağıl sahibləri, yasaq etdiyim şeylərdən qorunun!» (197)**

**Rəbbinizdən bir fəzilət diləməniz (həcc əməllərini yerinə yetirərkən alış-verişlə məşğul olmağınız) sizin üçün günah deyildir. Ərəfatdan ayrılıb axın etdikdə Məşərülhəramda Allahı zikr edin və Onu sizə göstərdiyi şəkildə yada salın. Şübhəsiz, siz bundan əvvəl azanlardan idiniz! (198)**

**Sonra insanların sel kimi axdığı yerdən siz də axın! Həqiqətən, Allah Ğəfurdur (bağışlayandır), Rəhimdir (Rəhmlidir)! (199)**

**Həcc ibadətlərinizi tamamlayıb qurtardıqda atalarınızı yada saldığınız kimi, hətta ondan da artıq Allahı yad edin! İnsanların bəzisi: «Ey Rəbbimiz, bizə elə bu dünyada ver!» – deyirlər. Belə şəxslərin axirətdə xeyirdən heç bir payı yoxdur! (200)**

**Bəziləri isə: «Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəllik ver və bizi atəşin əzabından qoru!» – deyirlər. (201)**

**Onların qazandıqlarından bir nəsibi vardır. Allah tezliklə haqq-hesab çəkəndir! (202)**

**Sayı müəyyən olan günlərdə Allahı zikr edin. Kim iki gündə tələsərsə (yəni Təşriq günlərinin ikinci günündə cəmrələri daşla vurub qurtardıqdan sonra Minadan köç etməyə tələsərsə), ona heç bir günah gəlməz. Eləcə də yubanana (13-cü günə qədər qalana) heç bir günah tutulmaz. Bu, müttəqilərə aiddir. Allahın yasaq etdiyi şeylərdən qorunun və onun hüzurunda toplanacağınızı bilin! (203)**

## «ALİ-İMRAN» SURƏSİNDƏKİ AYƏLƏR

**«Həqiqətən, insanlar üçün ilk bina olunan ev Bəkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. (96)**

**Orada açıq-aşkar nişanələr, həm də İbrahim məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır. Oraya getməyə gücü çatan şəxsin o Evi (Kəbəni) həcc etməsi (ziyarət etməsi) insanlar üzərində Allahın bir haqqıdır. Kim inkar edərsə (kafir olarsa) bilsin ki, Allah aləmlərdən ehtiyacsızdır!» (97)**

## «HƏCC» SURƏSİNDƏKİ AYƏLƏR

**«Kafir olanlar, (insanları) Allah yolundan həm yerlilər, həm də kənardan gələnlər üçün bərabər səviyyəli (məbəd) etdiyimiz Məscidülhəramdan uzaqlaşdıranlar (döndərənlər) (bilməlidirlər ki) kim orada zülmlə haqsızlığa meyil edərsə, ona şiddətli əzabdan daddıracağıq! (25)**

**(Ya Mühəmməd!) Yadına sal ki, bir zaman İbrahim üçün Evin (Kəbənin) yerini hazırlayıb belə buyurmuşduq: «Mənə heç bir şeyi şərik qoşma, Evimi təvaf edənlər, ayaqüstə ibadət edənlər, rüku edən və səcdəyə qapananlar üçün təmizlə!» (26)**

**İnsanlar arasında həcci yüksək səslə olan et ki, onlar sənin yanına piyada, hər uzaq yoldan hər cür arıq miniklə gəlsinlər. (27)**

**Belə ki, öz mənfətlərinin şahidi olsunlar və məlum günlərdə Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə Onun adını çəksinlər. Onlardan özünüz də yeyin, zavallı yoxsula da yedirdin! (28)**

**Sonra ehramdan çıxsınlar, nəzirlərini yerinə yetirsinlər və Qədim Evi təvaf etsinlər! (29)**

**Həcc əməlləri budur. Kim Allahın toxunulmazlıqlarına təzim edərsə, bu, Rəbbi yanında onun üçün daha xeyirlidir. Sizə oxunacaqlardan başqa, qalan heyvanlar sizə halal edildi. Belə olduğu təqdirdə, murdar bütlərdən qaçının, batil sözdən də çəkinin. (30)**

**Özü də batildən haqqa meyil edərək və Ona şərik qoşmadığınız halda! Allaha şərik qoşan şəxs göydən üzüqoylu düşən quşların onu sürətlə alıb apardığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə bənzər. (31)**

**Həcc ibadətləri budur. Kim Allahın əlamətlərinə (mərasimlərinə) hörmət etsə, bu hörmət, şübhəsiz ki, qəlblərin təqvasındandır. (32)**

**Sizin üçün bu əlamətlərdə – qurbanlıq heyvanlarda müəyyən vaxta qədər mənfəətlər vardır. Sonra onların (gətirilib kəsiləcəyi) yer Qədim Evə çatana qədərdir. (33)**

**Biz hər bir ümmət üçün qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dörayaqlı heyvanların üstündə Allahın adını çəksinlər. Sizin İlahınız tək olan İlahdır. Elə isə Ona təslim olun. (Ya Mühəmməd!) Müti və təvazökar bəndələrə müjdə ver! (34)**

**O kəslərə ki Allahın adı zikr ediləndə qəlbləri qorxudan titrəyər, qarşılaşdıqları müsibətə səbir edər, namaz qılar və onlara bəxş etdiyimizdən (verdiyimiz ruzidən) xərcləyərlər. (35)**

**Biz qurbanlıq dəvələri də sizin üçün Allahın əlamətlərindən qərar verdik. Onlarda sizin üçün xeyir vardır. Sıraya düzüldükləri halda üstlərində Allahın adını çəkin. Onlar böyrü üstə düşüb canları çıxdığı zaman ətindən özünüz də yeyin, əl açmayana və dilənçiyə də yedirdin. Onları sizə belə ram etdik ki, bəlkə, şükr edəsiniz! (36)**

**Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır. Allah sizi hidayət etdiyinə görə Onu uca tutasınız deyə, bu qurbanlıqları sizə belə ram etdi. (Ey Mühəmməd!) Ehsan edənlərə müjdə ver!» (37)**

## «MAİDƏ» SURƏSİNDƏKİ AYƏLƏR

**«Ey iman gətirənlər! Bağladığınız sazişlərə tamamilə sadiq olun. Ehramda olarkən ov qadağan edilməklə sizə adları oxunacaqlardan başqa qalan dördayaqlı heyvanlar (inək, qoyun, dəvə) halal edildi. Şübhəsiz ki, Allah istədiyini hökm edər! (1)**

**Ey iman gətirənlər! Allahın əlamətlərinə, haram aya, qurbana, (qurbanlıq heyvanların boynuna taxılmış) nişanlara və həmçinin özlərinin Rəbbindən bir fəzilət və razılıq diləyərək Beytülhərama gələnlərə hörmətsizlik etməyin. Ehramdan çıxdığınız zaman ov edin. Sizi Məscidülhərama daxil olmağa qoymayan camaata qarşı bəslədiyiniz kin sizi təcavüzə vadar etməsin. Yaxşılıq etməkdə və təqvada əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahın yasaq etdiyi şeylərdən qorunun! Həqiqətən, Allahın cəzası şiddətlidir!» (2)**

*** * ***

**«Ey iman gətirənlər! Allah sizi əllərinizin və mizraqlarınızın çata biləcəyi bir ovla imtahan edər ki, qeybdə (heç kimin görmədiyi bir yerdə) Ondan kimin qorxduğunu bilsin. Bundan sonra həddi aşanı şiddətli bir əzab gözləyir. (94)**

**Ey iman gətirənlər! Ehramda olarkən ovu öldürməyin. Sizdən kim onu qəsdən öldürərsə, boynuna öldürdüyü heyvana bənzər cəza düşür. Buna Kəbəyə çatası qurban olmaq üzrə içərinizdən olan iki ədalətli şəxs hökm edər. Yaxud gördüyü işin cəzasını dadsın deyə üzərinə miskinləri yedirtməkdən, yaxud ona bərabər oruc tutmaqdan ibarət bir kəffarə düşər. Allah keçmişdə olanları bağışlamışdır. Hər kəs bundan sonra belə bir iş görsə, Allah ondan intiqam alar. Allah yenilməz qüvvət və intiqam sahibidir!» (95)**

**Sizə və müsafirlərə bir fayda olsun deyə dəniz ovu və onu yemək sizə halal edildi. Ehramda olduğunuz müddətdə quruda ov etmək sizə haram edildi. Hüzuruna toplanacağınız Allahdan qorxun! (96)**

**Allah Beytülhəram olan Kəbəni, haram ayı, qurbanı, (qurbanlıq heyvanların boynuna taxılmış) nişanları insanların ayağa qalxıb sahmana düşməsi üçün bir səbəb təyin etdi. Bu ona görədir ki, Allahın göylərdə və yerdə nə varsa hamısını bildiyini siz də biləsiniz. Həqiqətən, Allah hər şeyi biləndir! (97)**

**Bilin ki, Allahın əzabı şiddətlidir və Allah Ğəfurdur (Bağışlayandır), Rəhimdir (rəhm edəndir)! (98)**

**Rəsulun (Elçinin) üzərinə düşən vəzifə ancaq təbliğ etməkdir. Allah üzə çıxartdıqlarınızın və gizlətdiklərinizin hamısını bilir!» (99)**

**«TÖVBƏ» SURƏSİ**

**«Allahdan və Onun Rəsulundan böyük həcc günü insanlara bildirişdir! Həqiqətən, Allahın və Onun Elçisinin müşriklərlə heç bir əlaqəsi yoxdur. Əgər tövbə etsəniz, bu sizin üçün daha xeyirlidir. Əgər üz döndərsəniz, bilin ki, siz Allahı aciz qoya bilməzsiniz. Kafirləri şiddətli bir əzabla müjdələ!» (3)**

## HƏCC VƏ ÜMRƏNİN BÖLMƏLƏRİNİN ÜMUMİ İZAHI

Həcc üç hissəyə bölünür:

1. Təməttö həcci;
2. Qiran həcci;
3. İfrad həcci;

Ümrə də iki hissəyə bölünür:

1. Təməttö ümrəsi;
2. Ümreyi-müfrədə;

Mükəlləfin bu bölgülərə nisbətdəki təklifi (vəzifəsi), onun Məkkəyə nisbətdəki məskəninin coğrafi mövqeyinin dəyişməsi ilə dəyişir. Necə ki, heyz yolun bağlanması və onlara bənzər hallarda olduğu kimi mükəlləfin qəfil qarşılaşdığı bəzi vəziyyətlərin nəticəsi olaraq bunda da onun (yəni mükəlləfin) hökmünün dəyişməsi mümkündür. Gələcək məsələlərdə bunun haqqında danışacağıq.

Mükəlləf Məkkəyə nisbətdəki vətəninin mövqeyi baxımından iki hissəyə bölünür:

1. **«əl-Qərib» (yaxın şəxs);** o şəxs Allahın kəlamında **«Əhli-əyalı Məscidülhəramda olan»,** – deyə ifadə olunmuşdur. O, mənzili ilə Məkkə arasındakı məsafə 12 mil, yəni 19,5 km-dən az olan şəxsdir.

2. **«ən-Nai» (uzaq şəxs);** o, yaşadığı yerlə Məkkə arasındakı məsafə deyilmiş məsafədən daha çox olan şəxsdir. Mənzili həmin məsafənin başında yerləşən şəxs də eyni hökmdədir.

Müstəti olduqda «qərib»in vəzifəsi qiran, yaxud ifrad həccini yerinə yetirməkdir. Ümreyi-müfrədəyə müstəti olarsa, onu da yerinə yetirməlidir. «Nai»nin vəzifəsi isə təməttö ümrəsi və təməttö həccini yerinə yetirməkdir. Boynunda hiccətül-İslam olan «qərib» təməttö həccini yerinə yetirə bilməz. Həmçinin «nai» də ifrad, yaxud qiran həccini yerinə yetirə bilməz. Sonra əlavə olaraq qeyd edəcəyimiz bəzi hallar istisna olmaqla bu onun hiccətül-islam olan vacib həccinin yerinə kifayət etmir.

Lakin müstəhəb, yaxud mütləq olaraq nəzir edilmiş, belə ki, nəzirdə növü müəyyənləşdirilməmiş, yaxud bunun kimi mütləq olaraq vəsiyyət edilmiş həccə gəlincə, mükəlləf təməttö, ifrad və qiran həcci arasında ixtiyar sahibidir. Baxmayaraq təməttö həccini seçməsi daha fəzilətlidir, çünki rəvayətlərdə onun ən fəzilətli həcc növü olduğu qeyd edilmişdir.

## TƏMƏTTÖ ÜMRƏSİ

**Birinci vacib əməl: Ehram bağlamaq;**

Ehramsız ümrəni yerinə yetirmək mümkün deyil. Onun yerinə yetirilmə şəkli aşağıdakı kimidir:

– Kişi, adətən, geyindiyi paltarlarını çıxarıb ehramın iki paltarını geyinməli, birincisi (beldən aşağı bağlanan qətfə) ilə göbəyi və dizi arasında olan hissəni – artığın heç bir qorxusu yoxdur – ikincisi (bürüncək, əba) ilə isə çiyinlərini və beldən sayılan miqdarı örtməlidir.

– Təməttö ümrəsi üçün ehram bağladığını niyyət etməlidir. «Allah rizası üçün hiccətül-İslamın təməttö ümrəsinin ehramını bağlayıram», – deməsi müstəhəbdir. Yerinə yetirdiyi həccin növünə – müstəhəb, vacib və s. – uyğun olaraq niyyətini dəyişdirməlidir.

– Ərəb dilində düzgün şəkildə təlbiyə demək; təlbiyədə **«Ləbbeyk, Allahummə ləbbeyk, ləbbeyk la şərikə ləkə ləbbeyk!»**[8] demək kifayətdir. **«İnnəl-Həmdə vən-nimətə ləkə vəlmülkə la şərikə ləkə ləbbeyk»**[9] zikrlərini əlavə etmək müstəhəbdir.

[8] Sənin çağırışına cavab verdim, Allahım, Sənin çağırışına cavab verdim. Sənin çağırışına cavab verdim. Sənin şərikin yoxdur, Sənin çağırışına cavab verdim!

[9] Həmd, nemət və mülk Sənə məxsusdur. Sənin şərikin yoxdur, Sənin çağırışına cavab verdim!

– İstər qadın olsun, istərsə də kişi, ehram bağladıqdan sonra mükəlləfə aşağıdakı işlər haram olur:
1. Cinsi münasibətlə məşğul olmaq; hətta öpmək və qucaqlamaq da haramdır.
2. Zinət məqsədi ilə güzgüyə baxmaq;
3. Zinət məqsədi ilə üzük taxmaq; müstəhəb işi yerinə yetirmək, yaxud təvafın dövrələrini saymaq üçün üzük taxmağın heç bir qorxusu yoxdur.
4. Sürmələnmək və bədənin bir hissəsini məlhəm, yaxud kremlə yağlamaq;
5. Ətriyyatdan istifadə etmək və onu iyləmək və içində zəfəran kimi xoş ətirli bir şeyin olduğu yeməyi yemək.
6. Şəhərlər, kəndlər və müxtəlif məntəqələr arasındakı məsafələrin qət edilməsi halında kişilərin kölgələnməsi; lakin ehram halında olan şəxs müəyyən bir məkanda düşsə, istər oranı mənzil seçsin, istərsə də seçməsin, məsələn, yol əsnasında istirahət, yaxud dostlarla görüşmək, yaxud başqa səbəblərə görə otursa, hər bir vasitə ilə kölgələnmək icazəlidir. Hətta çətir kimi hərəkət edən cisimlərlə belə kölgələnmək icazəlidir. Baxmayaraq bu vaxt ondan çəkinmək daha fəzilətlidir.
7. Allah-Taalaya and içməklə mübahisə etmək (cidal) və itaətdən çıxmaq; itaətdən çıxmaq deyildikdə əhvətə əsasən bütün günahlar nəzərdə tutulur.
8. Tikilmiş paltar geyinmək;
9. Kişi üçün başı örtmək; hətta əl çantasını başının üzərinə qoymaqla olsa belə.
Bundan başqa yasaqlar halında maraqlanmaq istəyənlər «Həcc ibadətləri üzrə soraq kitabı»na müraciət edə bilərlər.
– Ehram üçün dəstəmaz almaq və qüsl etmək şərt deyil, lakin müstəhəbdir. Heyz halında olan qadın miqatda mövcud olan məscidin xaricində ehram bağlamalıdır.
– Yolu miqatdan keçən şəxsin ehramı miqatda bağlaması vacibdir. Əgər həccə təyyarə ilə gedən şəxs birbaşa Məkkəyə gedəcəksə, Cəddədə ehram bağlaması mümkündür. Lakin Məkkəyə nisbətən yaxın olan miqatda ehram bağlaması daha fəzilətlidir və müstəhəb ehtiyatdır. O miqat Cuhfədir.
– Kişilərin gecə kölgələnməsi icazəlidir, ancaq vacib ehtiyata əsasən səmanın yağışlı olması istisnadır. Qadınlara gəlincə, onların həm gecə, həm də gündüz kölgələnmələri icazəlidir.
– Tikilmiş pul kisəsi qayışının və ayaqqabının geyinilməsinin heç bir maneəsi yoxdur, bir şərtlə ki, ayaqqabı ayağın üzərini tamam örtməsin.

**İkinci vacib əməl: Təvaf:**

1. Boynunda böyük hədəs olan şəxsin təvaf üçün qüsl etməsi vacib olduğu kimi dəstəmazsız olan şəxsin də dəstəmaz alması vacibdir. Təharətsiz təvaf etmək səhih deyil.
2. Mükəlləf qəlbi, yaxud dili ilə Allah rizasına görə təməttö ümrəsi üçün təvaf etdiyini niyyət etməli və təvafı Həcərüləsvəddən başlamalıdır. Qara daş tərəfdə yerə çəkilmiş qəhvəyi rəngli xətt bunu göstərir. Sonra Kəbənin sol tərəfindən hərəkət etməli və Hicri-İsmayılın xaricindən (çölündən) təvaf etməlidir. Həcərüləsvədə çatdıqda birinci dövrəni tamamlamış hesab olunur. Bu minvalla hamısı Həcərüləsvədə çatan yeddi dövrəni tamamlayana qədər işini yerinə yetirməlidir.
– Təvafda insanların təvaf etdiyi kimi təvaf etmək kifayətdir. Təvaf edən şəxsin dəqiqliyə riayət edib Kəbəni düz bucağa oxşar şəkildə sol tərəfində qərar verməsi lazım deyil.
– Təvaf əsnasında adi şəkildə izdiham və basabasın olmasının, həmçinin Kəbənin divarına, yaxud Hicri-İsmayıla toxunmağın heç bir zərəri yoxdur.
– Kəbə ilə İbrahim məqamı arasında təvaf etmək vacib deyil, əksinə təvaf müttəsil olduğu müddətdə İbrahim məqamının çölündən də təvaf etmək mümkündür.
– Təvaf əsnasında dövrələrin sayında şübhə edərsə, təvaf batildir. Onu yenidən yerinə yetirmək lazımdır. Lakin Həcərüləsvədin yanında yeddi və səkkiz arasında şübhə etməsi istisnadır. Bu halda təvaf səhihdir.
– Təvaf edən şəxsin öz dövrələrinin sayının yadda saxlanmasında dövrələrinin sayına yəqinliyi olan yoldaşının hesablamasına istinad etməsi icazəlidir. Hər hansı bir dövrədə onda şübhə yaranarsa, yoldaşının yəqinliyinə müraciət və etimad etməlidir.

**Üçüncü vacib əməl: Təvaf namazı:**

Onu birbaşa təvafdan sonra İbrahim məqamının yerləşdiyi tərəfdə qılmaq lazımdır. O sübh namazı kimi ikirükətli namazdır. Mükəlləf onun qiraətini yerinə yetirməkdə cəhrlə ixfat arasında ixtiyar sahibidir, yəni istərsə yüksək səslə, istərsə də pıçıltı ilə qılar. Qəlbi, yaxud dili ilə «Allah rizası üçün təməttö ümrəsinin təvafının iki rükət namazını qılıram», – şəklində niyyət etməlidir.

– Bəzi hacıların etdiyi kimi namazı birbaşa İbrahim məqamının arxasında qılmaq lazım deyil. Yuxarıda deyilmiş tərəfdə qılmaq kifayət edir. Belə ki, təvaf edənlərin sıxlığı ilə qarşılaşmadan sakin şəkildə namazı qıla bilməlidir. Təvaf namazını qılarkən məqama daha yaxın olan yerin seçilməsinə riayət etmək vacibdir.

– Əgər rükətlərin sayında şübhə etsə, namaz batildir. Lakin onun üçün zənn yaranarsa, yəqinlik halında olduğu kimi fikrini zənn etdiyi şeyin üzərinə qoymalıdır.

– Təvaf namazından sonra Məsaya getməmişdən əvvəl Zəmzəm suyundan içməyə getmək müstəhəbdir.

**Dördüncü vacib əməl: Səfa və Mərvə arasında səy etmək:**

1. Səyi Kəbəyə baxan kiçik dağ Səfadan başlamaq və Mərvəyə doğru yönəlmək lazımdır. Mükəlləf bununla bir dövrəni tamamlamış hesab olunur. Sonra Səfaya doğru yönəlməli və bununla da ikinci dövrəni tamamlamalıdır. Daha sonra Mərvəyə doğru yönəlməlidir. Mərvədə yeddi dövrə tamamlanana qədər bu şəkildə əməl etməlidir.

2. Qəlb, yaxud dillə niyyət etmək; «Allah rizası üçün təməttö ümrəsində Səfa və Mərvə arasında səy edirəm», – şəklində niyyət etməlidir. Səydə kiçik və böyük hədəslərdən təmizlənmək şərt deyil.

– Möhtərəm hacıların diqqət etməsi lazımdır ki, Mərvəyə doğru getmək bir dövrə, Səfaya doğru qayıtmaq isə digər bir dövrədir.

– Mükəlləfin səy əsnasında başı ilə sağa və sola baxmasının və danışmasının heç bir zərəri yoxdur. Lakin buna baxmayaraq insanı Allah-Taalanın zikrindən uzaqlaşdıra biləcək hər hansı bir şeydən çəkinmək daha fəzilətlidir.

**Beşinci və sonuncu vacib əməl: Təqsir etmək;**

1. Qəlbi, yaxud dili ilə «Allah rizası üçün təməttö ümrəsində təqsir edirəm», – şəklində niyyət etməli, sonra qayçı ilə tükündən, yaxud saqqalından, yaxud bığından bir qədər kəsməlidir. Bu işi harada istəsə, hətta mənzilində belə icra edə bilər.

– Təqsir əvəzinə başı qırxmaq icazəli deyil.

– Hələ təqsir etməmiş şəxsin başqalarını təqsir etməsi də icazəli deyil. Əgər bunu edərsə, onlar üçün bu kifayət edər.

## TƏMƏTTÖ HƏCCİ

**Birinci vacib əməl: Ehram bağlamaq:**

Hacı «Allah rizası üçün hiccətül-İslamda təməttö həcci üçün ehram bağlayıram», – şəklində niyyət etməlidir. Təməttö ümrəsində deyildiyi kimi ehram bağlamalıdır.

– Təməttö həcci üçün ehram bağlamağın yeri Məkkədir. Lakin Məkkənin Hərəmin hüdudlarından kənardan olan hissəsi istisnadır. Ehram bağlanan yerin ən fəzilətlisi qədim Məkkədir. Ehramın Məscidülhəramda bağlanması daha fəzilətlidir.

**İkinci vacib əməl: Ərəfatda vüquf etmək (yəni orada olmaq);**

– Hacının zilhiccə ayının doqquzuncu günü günəşin zəvalından[10] batmasına qədər Ərəfatda olması vacibdir.

– Hacı Allah rizasına görə təməttö həcci üçün Ərəfatda vüquf etdiyini niyyət etməlidir.

– Günəş zəval etdikdə qüsl etmək və dua etməyi artırmaq müstəhəbdir.

– O müddət ərzində Ərəfatın hüdudlarından çıxmaq icazəli deyil.

**Üçüncü vacib əməl: Müzdəlifədə (Məşərülhəramda) vüquf etmək (yəni orada olmaq);**

– Bayram günündə, yəni zilhiccə ayının 10-cu günündə kişilərin fəcrdən günəşin doğmasına qədər Müzdəlifədə olması vacibdir.

– Qadınların və onları müşayiət edən şəxslərin, xəstələrin və çox yaşlı qocaların gecənin bir hissəsini vüquf etməyi niyyət etməsi və Müzdəlifədən çıxmasıı mümkündür. Onların fəcrdən günəşin doğuşuna qədər vüquf etməsi vacib deyil.

– Qadınları müşayiət edən şəxslərin və başqalarının fəcrdən günəşin doğuşuna qədər vüquf etmək üçün Müzdəlifəyə qayıtması mümkün olarsa, qayıtmaları vacibdir. Lakin müşayiət etdiyi şəxslərin ona ehtiyac hiss etməsi istisnadır.

– Bayram günü Şeytanı daşqalaq etmək üçün Müzdəlifədən xırda daşlar yığmaq müstəhəbdir. Onları yüksək yerlərdən yığmaq müstəhəbdir. Ən azı 49 xırda daşın yığılması lazımdır.

**Dördüncü vacib əməl: Şeytanı daşqalaq etmək;[11]**

[10] Zəval deyildikdə günəşin çıxması ilə batması arasındakı orta vaxtdan qüruba tərəf (qərbə tərəf) bir an meyil etməsi nəzərdə tutulur.

– Burada «Əqəbə Cəmrəsi» adlanan «Böyük Cəmrə»nin yeddi xırda daşla vurulması vacibdir. Bu işin yerinə yetirilməsində şərt budur ki, hacı o daşları Cəmrəyə öz əlilə atmalı – istər sağ əl olsun, istərsə də sol əl –, xırda daşlar hovuza düşməli və Allah rizasına görə təməttö həcci üçün şeytanı daşqalaq etdiyini niyyət etməlidir.

– Şeytanın daşqalaq edilməsinin günəşin doğuşundan sonra olması vacibdir, ondan əvvəl yerinə yetirilməməlidir. Əgər günəşin doğuşundan əvvəl daşları atarsa, günəşin doğuşundan sonra bu işi təkrarən yerinə yetirməlidir.

– Bayram gecəsi Müzdəlifədən ayrılıb çıxmasına icazə verilən şəxsin gecə şeytanı daşqalaq etməsi icazəlidir.

**Beşinci vacib əməl: Qurban kəsmək;**

– Eyibləri, xəstəlikləri və zəifliyi olmayan (arıq olmayan) qoyunun kəsilməsi kifayət edir. Hacının onu özü kəsməsi vacib deyil. Əksinə başqasını da bu işə vəkil edə bilər. Qurbanı şeytanı daşqalaq etdikdən sonra kəsmək vacibdir. Heyvanı kəsən şəxs onu vəkil edən şəxsin yerinə Allah rizası niyyətini etməlidir.

**Altıncı vacib əməl: Başı qırxmaq, yaxud təqsir etmək;**

– Hacı başın qırxılması, yaxud təqsir işini qurbanın kəsilməsi və şeytanın daşqalaq edilməsindən önə atmamalıdır. Lakin özünün xüsusi qurbanlığını təyin etmişdirsə, qurbanlığı kəsməmişdən əvvəl təqsir etməsi, yaxud başını qırxması icazəlidir.

– Hacının «hiccətül-İslam»da başını qırxması vacib deyil. Bu daha fəzilətlidir.

– Əgər təqsir edərsə, yaxud başını qırxarsa, ətriyyatdan istifadə etmək, qadınlarla münasibət və ov etmək istisna olmaqla, ehramda ona haram olan bütün şeylər yenidən onun üçün halallaşır.

**Yeddinci vacib əməl: Məkkənin əməlləri:**

– Məkkənin əməlləri həcc təvafı və onun namazından, səydən, nisa təvafı və onun namazından ibarətdir. Hacının o əməlləri başını qırxdıqdan, yaxud təqsir etdikdən sonra yerinə yetirməsi mümkündür. O əməllərin başın qırxılmasından, yaxud təqsirdən önə atılması icazəli deyil. O əməllərin yerinə yetirilmə forması ümrə təvafında olduğu kimidir. Lakin onları aşağıdakı ardıcıllıqla Allah rizası üçün yerinə yetirməlidir; həcc təvafı və onun namazı, həccin səyi, sonra nisa təvafı və onun namazı.

– Həcc təvafını və səyi sona çatdırdıqda ətriyyatdan istifadə etmək mükəlləf üçün halallaşır. Nisa təvafını yerinə yetirdikdən sonra, qadın da onun üçün halallaşır.

– Heyz qanının gələcəyindən qorxan, yaxud xəstə olan və bayram günü və ondan sonra təvaf etməkdə çətinlik şəxsin təvaf və səyi Ərəfata getməmişdən əvvəl yerinə yetirməsi icazəlidir. Lakin təvafdan əvvəl ehram bağlaması lazımdır. Ehrama girməmiş təvaf etməməlidir.

**Səkkizinci vacib əməl: Minada gecələmə:**

– Bu zilhiccə ayının on birinci və on ikinci gecəsində yerinə yetirilir. Gecənin yarısını gecələmək kifayətdir; ya birinci yarısını, ya da ikinci yarısını. Mükəlləf bunların arasında ixtiyar sahibidir. Gecənin yarısı günəşin batışı ilə fəcrin tülusu (çıxışı) arasında qərar tutan vaxtın yarısıdır.

– Gecə boyunca Məkkədə özünün vacib əməlləri – təvaf və səy kimi iki vacib əməl buna bir misal ola bilər –, yaxud ibadətlə məşğul olan şəxsin o gecə Minada gecələməyi tərk etməsi icazəlidir. Bir şərtlə ki, günəşin batışından fəcrə qədər bütün gecəni ibadətlə sona çatdırmalıdır. Baxmayaraq zahir budur ki, işadan sonra (işa vaxtından) fəcrə qədər ibadətlə məşğul olaraq Məkkədə qalması kifayət edir. İçmək, yemək və bunun kimi yüngül məşğuliyyətlərin ona heç bir zərəri yoxdur.

**Doqquzuncu vacib əməl: Cəmrələrin daşla vurulması:**

– Bu işin icra edilməsi zilhiccə ayının on birinci və on ikinci günlərində yerinə yetirilməlidir. Onu yerinə yetirdikdə hər gün «Cəmreyi-Suğra»nı («Kiçik Cəmrə»ni) yeddi xırda daşla, sonra «Cəmreyi-Vüsta»nı («Orta Cəmrə»ni) yeddi xırda daşla, daha sonra isə «Cəmreyi-Kübra»nı («Böyük Cəmrə»ni) yeddi xırda daşla vurmaq lazımdır.

Bu işin icrası zöhrdən əvvəl, yaxud sonra yerinə yetirilə bilər.

– **İfazə (ayrılıb axın etmək və çıxmaq):** hacı on ikinci gündə xırda daşları atdıqdan sonra, günəş zəval edənədək Minada qalmalıdır.

**İfrad həcci:** həccin bu növünün belə adlanması onun ümrədən təcrid olunması və ayrılmasına görədir. Mükəlləf birbaşa həcc üçün ehram bağlayar, sonra «Dəlilu Mənasikil-Həcc» («Həcc ibadətləri üzrə soraq kitabı») kitabında qeyd etdiyimiz müfəssəl bəyana əsasən ümreyi-müfrədəni yerinə yetirər. O, təməttö həccindən qurbanlığın olmaması ilə fərqlənir. Mükəlləf əgər məşhur olan o miqatlardan keçirsə, ifrad

---

[11] Buna «rəcm», yaxud «rəmy» deyilir.

həcci üçün o miqatlarda ehram bağlamalıdır. Yoxsa Cəddədə, yaxud Ədnəl-Hildə, yaxud hətta Məkkədə belə ehram bağlamalıdır.

**Qiran həcci:** Qiran həcci də ifrad həcci kimidir. Lakin bir şeylə ondan fərqlənir ki, qiran həccində hacı bayram günü Minada kəsmək üçün ehram bağladığı vaxtdan öz arxasınca qurbanlıq aparır və onun ehramı təlbiyə ilə bağlandığı kimi, «işar», yaxud «təqlid»lə də bağlanır.

«İşar» qurbanlıq olduğu bilinsin deyə qurbanlıq dəvənin hürgücünün yan tərəfinin yaralanması və onun qana bulaşdırılması ilə həqiqət tapır. Yaralamanın sağ tərəfdə olması əhvətdir. Bununla «işar» digər qurban növlərindən fərqli olaraq yalnız qurbanlıq dəvələrə məxsusdur.

«Təqlid» isə qurbanlıq olduğu bilinsin deyə qurbanlığın boynuna ip, yaxud ayaqqabı, yaxud da bunun kimi bir şey asmaqdan ibarətdir. «Təqlid» əvəzinə «təclil»lin kifayət etməsi də uzaq görüş deyil. Həmin heyvanın qurbanlıq olmasının bir əlaməti olsun deyə qurbanlığın paltar və ya onun kimi bir şeylə örtülməsindən ibarətdir. «Təqlid» və «təclil» dəvə və ondan başqa qurban növləri arasında müştərək olan əməllərdir.

**Ümreyi-müfrədə:** ümreyi-müfrədə təməttö ümrəsindən səydən sonra həlq (başın qırxılması), yaxud təqsirin hər birinin icazəli olması və bundan sonra nisa təvafının yerinə yetirilməsinin vacib olması ilə fərqlənir.

## HEYZ VƏ İSTİHAZƏNİN HÖKMLƏRİ HAQQINDA

Keçən mövzulardan aydın oldu ki, təvafda hədəsi-əsğər və hədəsi-əkbərdən pak olmaq şərtdir. Buna görə də heyz və nifasın hər biri təvafın düzgünlüyünə maneçilik törədən amillərdən hesab olunur. Necə ki müstəhazənin (istihazə halında olan qadının) öz təvafı üçün dəstəmaz alaraq və qüsl edərək vəzifəsinə əməl etməsi lazımdır.

Heyz və nifasın müddəti bəzən uzun olduğuna görə, təvafa və ümumən həccə nisbətdə qadının hökmləri qanın gəldiyi zaman müddəti və onun kəsilməsi və qadının ondan pak olması müddətinin fərqlənməsi ilə fərqlənir.

Bu, qadınların daha çox qarşılaşdığı bir iş olduğuna görə onun üçün müstəqil bir mövzunun açılmasına üstünlük verdik. Bu mövzuda qadınlardan gələn qanın hökmlərini aşağıda bəyan edəcəyik.

– Əvvəldə qeyd olundu ki, ehramda paklıq şərt deyil. Buna görə də heyz və nifas halında ehrama girmək səhihdir. Həmçinin istihazə halında da ehrama girmək səhihdir. Lakin haiz və nəfsanın (heyz və nifas halında olan qadınların) məscidlərə daxil olması yasaq olduğuna görə, ehram bağladığı miqatda mövcud olan məscidin xaricində ehrama girməlidir. Bu şəkildə ehrama girməsində heç bir problem yoxdur.

– Vəzifəsi təməttö olan və təməttö ümrəsinin ehramını bağlamaq istəyən qadından ümrə təvafına başlamamışdan əvvəl ehram halında, yaxud ondan qabaq, yaxud ehramdan sonra bəzən qan gəlir ki, burada bəzi hallar vardır:

**Birinci hal:** qadın ümrə təvafını pak bir vəziyyətdə yerinə yetirib həccə təyin olunmuş vaxtında – zilhiccənin 9-da çata biləcəyi bir müddətdə qanın kəsiləcəyini bilir; bu halda ehramlı vəziyyətdə bu müddətə qədər gözləməsi və ümrənin əməllərini təbii şəkildə yerinə yetirməsi vacibdir.

**İkinci hal:** həccin vaxtından əvvəl haiz qadın heç vaxt təmizlənməyəcək; o qadının hökmü budur ki, təməttö niyyətində baqi qalmalı, təməttö ümrəsinin təharət şərt olmayan əməllərini yerinə yetirməli, təvaf və onun namazını tərk etməli və yalnız səy və təqsir etməli və ehramdan çıxmalıdır. Həccin vaxtı gəldikdə onun üçün ehrama girməlidir. Qurban bayramı günü Minanın əməllərini sona çatdırdıqdan sonra pak bir vəziyyətdə ümrə təvafı və onun namazının qəzasını yerinə yetirməlidir. Bunu həccin təvafını yerinə yetirməmişdən əvvəl icra etməlidir. Bu hökm heyz qanının təməttö ümrəsinin ehramından qabaq, yaxud sonra gəldiyi hər iki hala şamil olur.

**Üçüncü hal:** qadın qanın axmasının Təşriq günlərində Minadan qayıtdıqdan sonraya qədər davam edəcəyini və həcc ekspedisiyasında yoldaşlaq etdiyi şəxsin səbirsizliyi ucbatından olsa da belə qandan təmizələnənə qədər Məkkədə qala bilməyəcəyini bilir; bu halda onun yerinə ümrə təvafını yerinə yetirib onun namazını qılacaq bir şəxsi vəkil (naib) tutması vacibdir. Naib (vəkil) təvaf namazını bitirdikdən sonra səyi özü yerinə yetirməlidir.

– Qadının ehtiyat etməsi vacib olan gün heyz günləri hökmündədir. O gündə heyzin hökmü tətbiq olunmalıdır.

– Bəzən təvaf əsnasında qadından qəflətən heyz qanı gəlir. Burada bəzi hallar vardır.

**a)** Heyz halı dördüncü dövrə tamamilə sona çatmamışdan əvvəl baş verir; bu vəziyyətdə onun təvafı batildir və o, əvvəldə deyilənə əsasən öz vəziyyətinə baxmalı və ona uyğun əməl etməlidir.

**b)** Heyz halı dördüncü dövrə sona çatdıqdan sonra baş verir; istər heyz halının baş verməsi beşinci, yaxud altıncı, yaxud da yeddinci dövrədə baş versin, fərqi yoxdur. Bu halda yerinə yetirdiyi dövrələr səhihdir. Həcdən əvvəl vaxt genişdirsə, qandan təmizləndikdən və qüsl etdikdən sonra əskik qalan dövrələri təvaf namazı ilə birlikdə yerinə yetirməlidir. Əgər vaxt yoxdursa, səy və təqsir edib ümrənin ehramından çıxması vacibdir. Sonra vaxtında həcc üçün ehrama girər, minanın əməllərini sona çatdırdıqdan sonra həccin təvafını yerinə yetirməmişdən əvvəl təvafından baqi qalanı namazla birlikdə qəza edər. Əgər heç təmizlənməsə, namazla birlikdə əskik dövrələrin yerinə yetirilməsi üçün vəkil tutmalıdır.

**c)** Heyz halı təvaf bütünlüklə sona çatdıqdan sonra namazdan qabaq, yaxud namaz əsnasında baş verir; bu halda təvaf səhihdir. Deyilmiş şəkildə vaxt geniş olduğu təqdirdə qandan təmizləndikdən və qüsl etdikdən sonra namazı qılması lazımdır. Əks təqdirdə (yəni vaxt dar olarsa) səy və təqsir edib ehramdan çıxmalı və Minadan qayıtdıqdan sonra həccin təvafını yerinə yetirməmişdən əvvəl o namazın qəzasını qılmalıdır. Əgər bunun üçün də vaxt dar olarsa, namaz üçün vəkil tutması lazımdır.

– Qadın təvafı bitirdikdən sonra heyz olduğunu hiss etsə, heyz halının təvafdan əvvəl, yaxud təvaf əsnasında, yaxud ondan sonra baş verib-vermədiyini bilməsə, təvafın düzgünlüyü fikri üzərində dayanmalıdır. Həmçinin namaz qılıb heyz olduğunu hiss etdikdə və heyz halının namazdan əvvəl, yaxud namaz əsnasında, yaxud da ondan sonra baş verməsində şübhə etdikdə təvaf namazının sihhətinə (düzgünlüyünə) hökm olunur. Lakin şübhə etməsə, əksinə, heyz halının təvaf əsnasında, yaxud ondan əvvəl baş verdiyini bilsə, onun üzərində hökm əvvəldə ətraflı şəkildə bəyan olunanlar əsasında yerinə yetiriləcəkdir. Fikir verməlidir; əgər heyz qanı təvafdan əvvəl, yaxud dördüncü dövrə tamam olmamışdan əvvəl gəlibsə, təvaf batildir. Əgər dördüncü dövrədən sonra gəlibsə, yerinə yetirdiyi qədər səhihdir və digər dövrələri namazla birlikdə qandan təmizlənənə qədər təxirə salmalıdır. Əgər heyz qanı təvafdan sonra namazdan əvvəl gəlibsə, təvaf səhihdir və ələlxüsus namazı təxirə salmalıdır. Onun vəziyyəti deyilənlərdən hər hansı birində olsa, ədası təvafdan sonra vacib olan, yaxud baqi qalan, yaxud onun namazında əvvəldə deyilənə əsasən öz vəziyyətinə baxmalıdır.

– Qadının ümrənin əməllərini heyz qanı gələcək vaxta qədər təxirə salması icazəli deyil. Belə ki, o vaxt şərti təharət olan əməlləri yerinə yetirmək qeyri-mümkün olur. Deməli, təməttö ümrəsi üçün ehrama girsə və pak olduğu halda Məkkəyə çatsa, təharətlə ümrə təvafı və onun namazını yerinə yetirmək mümkün olsa, bunu heyz qanı gələnə qədər, belə ki, həccin vaxtı gəlməmişdən qabaq heyz qanından təmizlənməsi mümkün olmayacaq. Yaxud həccə çatmaqla ümrə əməllərinin yerinə yetirilməsi mümkün olmayacağı dar vaxt ərzində təmizlənəcəyi vaxta qədər təxirə salması icazəli deyil. Əgər bunu etsə, ümrəsi batildir. Ümrə batil olduqda həcc də batil olur. Onun üçün bu vəziyyətdə daha fəzilətli budur ki, ifrad həccinə meyil edib onun əməllərini yerinə yetirsin və ondan sonra ümreyi-müfrədəni yerinə yetirsin, sonra qarşıdan gələn ildə həcci yenidən yerinə yetirsin.

– Ümrə, yaxud həcc əsnasında qəflətən heyz qanının gələcəyindən qorxan, yaxud heyz qanının qəflətən gəlməyəcəyi haqqında artıq xatircəmlik yaranmasını istəyən qadınlar, adəti təxirə salan, yaxud onu qabağa atan bəzi dərmanlar qəbul edirlər. Burada bəzi hallar vardır:

**a)** Ondan heç vaxt heyz qanı gəlmir; adət vaxtı əsnasında olsa da belə pak qadının əməlini yerinə yetirməkdə heç bir problem yoxdur.

**b)** Qadından qan kəsilmir və qan təbii şəkildə, yəni heyzin şərtlərinə uyğun şəkildə gəlir; o qadının hökmü budur ki, özünü heyzli hesab etməli və əvvəldə deyilmiş şəkildə öz vəziyyətinə uyğun olaraq əməl etməlidir.

**c)** Qadından qan kəsilmir, lakin qan heyzin şərtlərinə uyğun şəkildə gəlmir; məsələn, qan üç gün davam etmir, yaxud adətin vaxtı olmayan günlərdə heyz sifətlərində olmur. O qadının hökmü budur ki, özünü müstəhazə hesab etməli və qəlilə, yaxud mütəvəssitə, yaxud da kəsirə olmaq üzrə istihazənin hökmlərinə uyğun öz vəzifəsinə əməl etməlidir.

– İstihazə halı qadının Məscidülhərama daxil olmasına mane olmur. Həmçinin istihazə halı müstəhazənin istihazəyə münasib əməlləri yerinə yetirmək şərti ilə təvafa da mane olmur. O qadının hökmü istihazənin mərtəbələrinin dəyişməsinə uyğun olaraq dəyişir. Bu aşağıdakı qaydada baş verir.

**a)** Əgər istihazə istihazeyi-qəlilə olarsa, qadın təvaf üçün dəstəmaz almalıdır. Təvaf namazı üçün müstəqil bir dəstəmaz almaq əhvətdir. İstihazeyi-qəlilə pambığı fərcə soxmaq və azacıq gözləyib sonra

çıxartmaqla öyrənilir. Belə ki, qan halqavarı şəkildə və yüngülcə pambığı bulayır və bulaşıqlıq bütün pambıq qana batacaq dərəcəyə çatmır.

**b)** Əgər istihazə istihazeyi-mütəvəssitə olarsa, qadın təvaf və onun namazı üçün bir qüsl etməli və təvaf üçün dəstəmaz almalıdır. Sonra əhvətə əsasən namaz üçün də digər bir dəstəmaz almalıdır. İstihazeyi-mütəvəssitə odur ki, onda pambıq qadının fərcindən yüngül şəkildə bulaşmış vəziyyətdə çıxır. Belə ki, pambığı fərcdən çıxartdıqdan sonra bu bulaşıqlıq qanın pambıqdan axmasına səbəb olmur və istihazeyi-mütəvəssitədə qan bütün pambığı əhatə edir.

**c)** Əgər istihazə istihazeyi-kəsirə olarsa qadının hökmü budur ki, əgər boynunda hədəsi-əsğər yoxdursa, dəstəmaza ehtiyac olmadan təvaf və onun namazı üçün bir qüsl etsin. Əgər boynunda hədəsi-əsğər vardırsa, bir dəfə təvaf üçün, bir dəfə də namaz üçün olmaq üzrə qüslə dəstəmaz əlavə etmək daha fəzilətlidir. İstihazeyi-kəsirə halı da pambığın deyilmiş şəkildə fərcə soxulması yolu ilə öyrənilir. Əgər qadın istihazeyi-kəsirə halındadırsa, pambıq fərcdən qatı şəkildə qana bulaşmış vəziyyətdə xaric olur və özü də bu bulaşma qanın pambıqdan axmasına səbəb olur.

Seyid Mühəmmədhüseyn Fəzlullah 2006-cı il dekabr ayının 22-də (1427-ci il zilhiccənin 1-i) «İmameynil-Həsəneyn Məscidi»nin minbərindən bir çox elmi, siyasi və ictimai şəxsiyyətlərin və bir qrup möminin hüzurunda alovlu şəkildə iki cümə xütbəsi söyləmişdir. Xütbədə deyilir:

Kəbəni – Beytülhəramı tikib qurtardıqdan sonra Allah-Taala öz peyğəmbəri İbrahimə deyir: **«… İnsanlar arasında həcci yüksək səslə elan et ki, onlar sənin yanına piyada, hər uzaq yoldan hər cür arıq miniklə gəlsinlər. Belə ki, öz mənfəətlərinin şahidi olsunlar və məlum günlərdə Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə Onun adını çəksinlər. Onlardan özünüz də yeyin, zavallı yoxsula da yedirdin!»**[12] **«… və Qədim Evi təvaf etsinlər!»**[13] **«Həcc ibadətləri budur. Kim Allahın əlamətlərinə hörmət etsə, bu hörmət, şübhəsiz ki, qəlblərin təqvasındandır».**[14] Allah-Taala buyurur: **«… Oraya getməyə gücü çatan şəxsin o Evi (Kəbəni) həcc etməsi (ziyarət etməsi) insanlar üzərində Allahın bir haqqıdır. Kim inkar edərsə (kafir olarsa), bilsin ki, Allah aləmlərdən ehtiyacsızdır!»**[15]

## BƏNDƏÇİLİK VƏ İTAƏT MÖVQEYİNDƏ ALLAHIN SƏSİNİ EŞİDİB ONA CAVAB VERMƏK

Bu günlər həcc mövsümünə hazırlıq günləridir. Elə günlərdir ki, bu günlərdə insanlar Allahın hər bir müstəti şəxsə vacib etdiyi həcc vəzifəsini yerinə yetirmək və ilk ümumdünya məscidi olan Beytülhəramın yanında qarşılaşmaq üçün dünyanın müxtəlif yerlərindən həcc ziyarətinə gəlirlər. Allah-Taala «Ali-İmran» surəsinin 96-cı ayəsində buyurur: **«Həqiqətən, insanlar üçün ilk bina olunan ev Bəkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır».** Beytülhəram elə bir məsciddir ki, Allah insanların ona doğru yönəlməsini və namazda və Allahın vacib etdiyi bir çox işlərdə üzlərini ona doğru tutmasını istəmişdir. Bununla müsəlmanlar bilməlidirlər ki, onlar Allahın birliyinə inanır, Onun kölgəsi altına sığınır və Onun evini təvaf edirlər.

Həmçinin həcc vəzifəsi elə bir vəzifədir ki, insan onda öz Rəbbi ilə əlaqə əldə edir və Onun bütün əmrlərində və yasaqlarında Ona bəndəçilik və itaət mövqeyində dayanaraq Onun çağırışına cavab verir. Mülahizə edirik ki, insan həccə başlamaq istədikdə Allah istəyir ki, o geyindiyi paltarda adət etdiyi bütün şeyləri tərk etsin. O şeylər ki, insanlar qumaşında, tikişində, rənglərində və s-də bir-biri ilə yarışır. İnsan bunların hamısını soyunur. Sabah Allahın hüzurunda onunla dayanacağı kəfənə oxşar iki ehram paltarı ilə kifayətlənir.

Həmçinin insan ehram qüslü verdikdən sonra ehram bağlamağa başlayır. Sanki Allah insanın ehramda Onun qarşısında pak bir vəziyyətdə dayanması üçün bütün günahlardan təmizlənməsini istəyir. Həqiqətən, insan Allahın ona: **«Ey insanlar! Rəbbinizin yasaq etdiyi şeylərdən qorunun!»**[16] və **«Ey iman gətirənlər!»**[17] – deyə etdiyi xitabların üzərində düşünməlidir. Belə ki, Allah öz bəndələrinə onların insanlığı və imanı yönü ilə müraciət edir ki, onlar Allah qarşısında bəndəçilik edib onun hüzurunda

[12] «Həcc», 27, 28
[13] «Həcc», 29
[14] «Həcc», 32
[15] «Ali-İmran», 97
[16] «Nisa», 1
[17] «Bəqərə», 104

təvazökarlıq etsinlər, əmr etdiyi şeylərdə ona itaət edib əmrlərini həyata keçirsinlər və yasaqlarını tərk etsinlər.

## DAİMİ TƏLBİYƏ

Burada ehramlı şəxs Rəbbinə yönəldiyi halda Ona üz tutaraq səslənir: **«Ləbbeyk, Allahummə ləbbeyk, ləbbeyk la şərikə ləkə ləbbeyk! İnnəl-Həmdə vən-Nimətə ləkə vəlmulkə la şərikə ləkə ləbbeyk!»** Bu sözləri Rəbbinə deyib yenidən Onunla əhd bağlayır: **«Ey Rəbbim! Mən bura Sənin bütün çağırışlarına cavab verməyə gəlmişəm».** Təlbiyə «daimi itaət» mənasını verir. Sən «ləbbeyk» dedikdə, sanki Rəbbinə deyirsən ki, ey Rəbbim, mənə əmr etdiyin və yasaq qoyduğun şeydə Sənə bir dəfə itaət etmirəm, əksinə, itaət əbədi olaraq mənim həyatıma girir; şəxsi həyatımda itaət, ailə həyatımda itaət, ictimai, iqtisadi və siyasi həyatımda itaət və təhlükəsizlik məsələlərində itaət; ey Rəbbim! Sənə nisbətdə həmişə itaət mövqeyində dayanacağam. Və bu səninlə Allah arasında bir əhddir. Sanki sən ehramda Onunla əhd bağlayırsan ki, bütün həyatın boyu Ona müti olacaqsan. Hər şey bundan sonra başlayır və adətən istifadə etdiyin xoşiyli ətirlərdən imtina edirsən; başını açıq qoyursan ki, günəş işığına və havaya məruz qalsın. Qədim Evə çatıb onu təvaf edirsən. Ayədə buyurulur: **«... Qədim Evi təvaf etsinlər. ...»**[18]

Evi təvaf etmək Allahın evinə tabeçiliyi ifadə edir. Allahın evi Ona itaət mövqeyidir. Sən Allahın evini təvaf etdikdə Evin tikildiyi daşlara ibadət etmirsən, hətta Qara daşa toxunduqda belə ona ibadət etmirsən, əksinə, Allahın, Ona itaət edərək ondan xeyir-bərəkət almağını istədiyi şeylə təbərrük alasan deyə ona toxunursan. Həmçinin Beytülharamı təvaf edən şəxs zalımların evlərini və mövqeləri və evləri əyləncə, pozğunluq, günah və insanların toxunulmazlıqlarına zülm etmək mövqeyində hərəkət edən bütün şəxslərin evlərini təvaf etməkdən uzaqlaşır. Buna görə də həmin şəxs öz ailəsinin evini içində şərab içilən, qumar oynanılan, rəzalətlərin hərəkətə gəldiyi və bununla da əhli-əyalına zülm olunduğu məsiyət və günah evi etməməli və həyatdakı bütün mövqelərini qərarlaşdırmalıdır; evi əməl yeri və olduğu hər bir məkanı da Allaha ibadət edilən mövqe qərarlaşdırıb orada Onu çox zikr etməli və səhər-axşam Ona şükr edib şəninə təriflər deməlidir.

## XEYİR VƏ HİDAYƏT YOLUNDA SƏY ETMƏK

Sonra hacı Səfa və Mərvəyə gəlir. Allah-Taala buyurur: **«Həqiqətən, Səfa və Mərvə Allahın əlamətlərindəndir»**[19]**.** Allaha yaxınlaşmaq və Onun itaəti yolunda səy etmək üçün yeddi dövrədə gah Səfanı, gah da Mərvəni təvaf etməklə Allaha ibadət etmiş oluruq. Səfa və Mərvə təpələri arasında səy edən şəxsin insana zülm etməyə, əyləncə, günah və pozğunluq evlərinə, möminə əziyyət verməyə, yaxud onun haqqını və ya malını batil yolla ələ keçirməyə doğru səy etməsi mümkün deyil. Səfa və Mərvə arasında səy etmək insana gizlicə işarə edir ki, o həyatı boyunca bütün insanlar üçün xeyir və hidayəti gerçəkləşdirə biləcək yolda səy etməlidir.

Bundan sonra öz keçmişindən bir şey kəsdiyinə işarə etmək üçün tükündən, yaxud dırnaqlarından bir qədər kəsir.

Beləcə hacı öz həccini yeni ehram və təlbiyə ilə başlayır. Yalvarıb-yaxarmaq, nəfsini hesaba çəkmək və Allaha doğru qayıtmaq və Ondan bağışlanmaq istəmək üçün Ərəfata gəlir. Hədisdə nəql olunur ki, kim Ərəfatda olub Allahın onu bağışlamayacağını zənn etsə, Allah onu heç vaxt bağışlamaz. Buna görə də hacı Allah haqqındakı zənnini gözəlləşdirməli, keçmişini bütünlüklə yada salmaq üçün nəfsi ilə baş-başa qalmalı, keçmişdəki bütün günahlarına tövbə etməli və həyatını yenidən başlamağa əzm etməlidir.

## DÜNYA VƏ AXİRƏT ARASINDA TARAZLIQ

Hacı Ərəfatdan Məşərülharama gəldikdə orada Allahı zikr etməlidir. **«... Atalarınızı yada saldığınız kimi, hətta ondan da artıq Allahı yad edin!»**[20] Burada bəzi insanlar: «… Ey Rəbbimiz, elə bu dünyada ver!», – deyirlər, yəni «bizə ev, övlad və çoxlu mal ver!», – deyirlər. Lakin axirət haqqında Allahın bağışlaması və rəhməti və Ona yaxınlıq barəsində danışmırlar. Allah-Taala buyurur: **«… İnsanların bəzisi «Ey Rəbbimiz, bizə elə bu dünyada ver!» – deyirlər. Belə şəxslərin axirətdə xeyirdən heç bir payı yoxdur!»**[21] Çünki onlar dünyaya daldılar və axirətə açılmadılar. **«Bəziləri isə: «Ey Rəbbimiz, bizə**

[18] «Həcc», 29
[19] «Bəqərə», 158
[20] «Bəqərə», 200
[21] «Bəqərə», 200

**dünyada da, axirətdə də gözəllik ver və bizi atəşin əzabından qoru!» – deyirlər. Onların qazandıqlarından bir nəsibi vardır. ...»**[22]

Sonra hacı Əqəbə Cəmrəsini daşla vurmaq üçün Mina torpağına gəlir. Daha sonra qurban kəsir, çünki bunu ondan Allah istəmişdir. Allah-Taala buyurur: **«Onlardan özünüz də yeyin, zavallı yoxsula da yedirdin!»**[23]

Bundan sonra tükündən bir qədər kəsir, yaxud başını qırxır. Sanki Allah bununla onun bütün keçmişindən canını qurtarmasını istəyir. Onun başında itaətə söykənən yeni bir tük çıxır. Beləcə insan Evi yenidən təvaf etmək və yenidən səy etmək üçün Məkkəyə gəlir. Sonra Allah qarşısında yalvarıb-yaxarmaq, Onun hüzurunda təvazökarlıq və sayqı nümayiş etdirmək üçün yenidən Minaya qayıdır.

Burada Cəmrələri daşla vurur. Sanki bununla böyük, yaxud kiçik olmasından asılı olmayaraq bütün şeytanlarını daşqalaq edir. Həcc mərasimi zilhiccə ayının 12-ci günündə sona çatır. Bu vaxt həcdə Allahın ondan istədiyini yerinə yetirmişdirsə, ona belə deyilir: **«Sənin heç bir günahın yoxdur, əməlini və həyatını yenidən başla; özü də Allahın itaətində olan bir həyat!»**

## HƏYATIN BÜTÜN SAHƏLƏRİNDƏ HƏCC

Əzizlərim! Beləcə ibadətlərin tamam olması ilə həcc mərasimi sona çatır. Lakin bundan sonra insan bütün həyatını əhatə edən yeni bir həccə başlayır. Təvafının Allahın razı qaldığı bütün şeylərdə, səyinin Allahın sevdiyi şeylərdə olması və bütün cin və insan şeytanlarını inkar etmək üçün bütün mövqelərdə və əlaqələrdə yeni bir həccə başlayır. Bununla insan həcdə onu həyatında və əxlaqında tərbiyə edən çox ünsürlər tapa bilər. Əhli-Beytdən nəql olunan bəzi hədislərdə deyilir: **«Bu Evə gələn şəxsdə üç xüsusiyyət olmasa, Allah ona diqqət etməz və əhəmiyyət verməz; Onu Allahın haram etdiyi şeylərdən çəkindirən vərə (çəkinmə halı), qəzəbinə onunla sahib çıxa biləcəyi helm (həlimlilik) və onunla yoldaşlıq edən şəxslə gözəl yoldaşlıq etmək».**

Əzizlərim, Allahdan istəyirik ki, hacıların həccini qəbul etsin və hər bir hacı həccin həqiqi mənasını başa düşsün və onu maddi məşğuliyyətlərdən ibarət olan adi səfər hesab etməsin, əksinə, düşünsün ki, o, Allahın yasaq etdiyi şeylər barəsində nəfsə qarşı inqilab, Şeytana qarşı üsyan və yeni bir həyata başlanğıcdır. Bu elə bir səfərdir ki, bütün müsəlmanlar onları bir yerə yığan, səflərini birləşdirən, bütün mövqelərini qüvvətləndirən, küfr və kafirlər, istismar və istismarçılarla üzləşdikdə Allah yolundakı strategiyalarını hərəkətə gətirən islami qardaşlığı düşünsünlər deyə həyata keçirilir.

## HƏCC VƏ ÜMRƏ İLƏ ƏLAQƏDAR TERMİNLƏR

**Cəmrə** – Lüğətdə «xırda daş, yanar köz, kösöv» mənasını verən «cəmrə» sözü, həcc termini olaraq, hacıların qurban bayramı günlərində Minada xalq arasında «şeytan» adlandırılan yerlərə atdıqları xırda daşların hər birinə deyilir. Bu daşların atıldığı yerə də məcazi olaraq «cəmrə» deyilir.

Məkkə yönündəki Cəmrələrin birincisinə «Cəmrətül-Əqəbə» deyilir. Bu cəmrəyə «Böyük Cəmrə» («Cəmreyi-Kübra»), xalq arasında isə «Böyük Şeytan» da deyilir.

Ortada yerləşən cəmrəyə «Cəmreyi-Vüsta» («Orta Cəmrə») deyilir. Xalq arasında buna «Orta Şeytan» da deyilir.

Birinci cəmrəyə isə «Cəmreyi-Suğra» («Kiçik Cəmrə») deyilir. Məkkə tərəfdən üçüncü cəmrədir. Xalq arasında bu cəmrəyə «Kiçik Şeytan» deyilir.

**Ehram** – Lüğətdə «hörmət edilməsi lazım olan bir yerə, yaxud zamana girmək» mənasını verən «ehram» sözü, həcc ibadəti ilə əlaqədar bir termin olaraq; «bir şəxsin həcc və ya ümrə, yaxud həm həcc, həm də ümrə etmək niyyəti ilə, digər zamanlarda halal olan bəzi davranışları özünə haram etməsi» deməkdir.

**Ərəfat** – Lüğətdə «bilmək, anlamaq, tanımaq» mənalarını verən «ərəfə» (ə-r-f) kökündən alınan «Ərəfat», Məkkənin 25 km cənub-şərqində ova görünüşündə düz bir sahənin adıdır. Şərqi, şimalı və cənubu dağlarla əhatə olunmuşdur. Ərəfat, Hərəmin hüdudları xaricində Hill bölgəsində yerləşir. Hərəmin sərhəddi ilə Ərəfat arasında Urənə vadisi vardır. Ərəfatın ortasında «Cəbəlur-Rəhmə» («Rəhmət dağı»), qərbində «Nəmirə məscidi» yerləşir. Ərəfata hal-hazırda ağaclar əkilmiş və doqquz avtomobil yolu ilə Müzdəlifəyə birləşdirilmişdir. Həccin əsil rüknü olan vüquf burada yerinə yetirilir.

**Həcərüləsvəd** – «Qara daş» deməkdir. Kəbənin şərq küncündə yerləşən 18-19 sm diametrində qırmızımtıl, qara və parlaq bir daşdır. İbrahim və İsmayıl – salam olsun onlara – tərəfindən Kəbə inşa

---

[22] «Bəqərə», 201, 202
[23] «Həcc», 28

edildiyi zaman Əbuqubeys dağından gətirilmişdir. Kəbənin şərq küncünə, təvafa başlanğıc əlaməti olaraq qoyulmuşdur.

**Həlq** – Şeytanı daşqalaq etdikdən və qurban kəsdikdən sonra kişilərin başlarını qırxması.

**Hərəm bölgəsi** – Lüğətdə «yasaq bölgə» mənasını verən «Hərəm bölgəsi» Məkkeyi-Mükərrəmə və Mədineyi-Münəvvərənin ətrafındakı müəyyən bir məkanın nəzərdə tutulduğu bir termindir. Hərəm bölgəsinin hədləri və hökmləri vardır. Hərəmin hədləri aşağıdakı kimidir:

**1. Məkkə Hərəmi;** onu şimaldan Məkkəyə 8 km məsafədə Mədinə istiqamətində yerləşən «Tənim», şimal-qərbdən Hüdeybiyyə, yaxud «Şumeysi», şimal-şərqdən «Məqtə dağının döşü», şərqdən Nəmirə çölündən Ərəfə ilə üzbəüz sərhəd, cənub-şərqdən Ciranə, cənub-qərbdən «İdatu-Libn» əhatə edir. Məkkə Hərəmində həm ehramlı olan, həm də ehramlı olmayan şəxs tərəfindən çöl heyvanlarının ovlanması, Hərəmdə bitən bir ağacın və bitkinin kökündən çəkilib çıxarılması, yaxud kəsilməsi haramdır.

**2. Mədinə Hərəmi;** «Air» və «Vəir» dağları, «Vaqim» və «Leyla» adlı vulkanik mənşəli daşlı torpaqlar onun hüdudlarından sayılır. Onun üçün ehrama girmək vacib olmamasına baxmayaraq onun ağacını, ələlxüsus xurmalarını kəsmək icazəli deyil. Lakin bəzi istisna hallarda olar. Həmçinin əhvətə əsasən Mədinə Hərəmində ov etmək də haramdır.

**Hicri-İsmayıl** – Kəbənin şimalında Rukni-İraqi ilə Rükni-Şami arasındakı qərb divarının qarşısında, yerdən 1 metr yüksəklikdə, 1,5 metr qalınlığında yarım dairə şəklindəki divara deyilir. Buna «Hətim» də deyilir. Hətim Kəbədən sayılır. Təvaf Hətimin xaricindən yerinə yetirilir.

Hicri-İsmayılda Hacər və İsmayılın qəbri yerləşir. İsmayıl anasını orada dəfn etmiş, sonra üzərinə ayaqla basılmasını istəmədiyinə görə onun üzərini daşla əhatəyə almışdır. Orada peyğəmbərlərin qəbirləri vardır. Orada (yəni Kəbənin şimal qərb divarı ilə Hətim arasındakı boşluqda) namaz qılmaq müstəhəbdir.

**Hill bölgəsi** – Lüğətdə «sərbəst bölgə» mənasını verən «hill bölgəsi», Hərəm bölgəsini əhatəyə alan Zül-Huleyfə, Cuhfə, Qərnul-Mənazil, Yələmləm və Zati-İrq adındakı məskünlaşma yerlərini birləşdirən etibari dairə ilə Hərəmin sərhədləri arasında qalan bölgədir. Bu bölgəyə «hill» adı ona görə verilmişdir ki, Hərəm bölgəsində haram olan işlər burada halaldır.

**İbrahim məqamı** – İbrahim əleyhissəlamın Kəbəni tikərkən, yaxud insanları həccə dəvət edərkən üzərinə çıxdığı yastı daşın yerləşdiyi (basdırıldığı) yerdir ki, hacılar təvaf əməlini yerinə yetirdikdən sonra oraya gedir və orada təvaf namazı qılırlar. İbrahim məqamı adlanan bu kiçik tikili Kəbənin qızıla çəkilmiş qapısı ilə üzbəüzdür. Buradakı daşda ayaq izi vardır. Daş, şüşə bir çıraq içinə alınmışdır.

**Kəbə** – Lüğətdə həndəsi fiqurlardan «kub» mənasını verən «Kəbə» Məkkədə Məscidülhəram deyilən şərafətli camenin ortasında təqribən 13 metr hündürlüyündə, 11-12 metr enində daşdan tikilmiş kvadrat şəkilli bir binadır. Kəbəyə «Beytullah» da («Allahın evi») deyilir.

Kəbənin şərq küncünə «Rükni-Həcəri-Əsvəd», cənub küncünə «Rükni-Yəmani», qərb küncünə «Rükni-Şami», şimal küncünə «Rükni-İraqi» deyilir.

Şimal-qərb tərəfində Hətim və Mizab (qızıl nov), şimal-şərq divarında qapı, şimal-şərq divarı qarşısında İbrahim məqamı və Zəmzəm quyusu vardır. Quranda Kəbənin İbrahim və İsmayıl tərəfindən tikildiyi bildirilmişdir.[24]

Kəbə günümüzə qədər bir neçə dəfə təmir edilmişdir. Kəbə hər il üzərində həcc ayələrinin yazıldığı qara ipək örtü ilə örtülür.

**Məsa** – Həcc və ya ümrə ziyarətini yerinə yetirən şəxslərin Səfa ilə Mərvə arasında səy etdikləri yerə verilən addır.

**Məscidülhəram** – Məkkədə ortasında Kəbənin yerləşdiyi şərafətli camedir. Xalq arasında Hərəmi-Şərif də deyilir. Yer üzündə ilk tikilən məsciddir.

**Məşərülhəram** – Məkkədə Ərəfat ilə Mina arasında, Müzdəlifənin sonunda Quzəh təpəsinin ətrafına verilən addır. Bu yer möhtərəm olduğu və burada həccin şüarlarından olan gecələmə, vüquf və namaz qılıb dua etmək kimi ibadətlər yerinə yetirildiyinə görə Məşərülhəram deyə adlandırılmışdır. Həzrət Peyğəmbər (ə) burada sabaha qədər qalıb dua etmişdir.

**Miqat** – Hərəm bölgəsinə və ya Məkkəyə gəlmək istəyənlərin, «nai»lərin ehrama girmədən keçə bilməyəcəkləri sərhədləri müəyyən edən nöqtələrə deyilir.

**Mina** – Məkkə ilə Müzdəlifə bölgəsi arasında yerləşib Hərəmin sərhədləri içində qalan bölgənin adıdır. Cəmrələr buradadır. Bayram günləri şeytanı daşqalaq etmə ayini burada yerinə yetirilir. Qurbanlar burada kəsilir.

---

[24] «Bəqərə», 124-129

**Müzdəlifə** – «İrəli keçmək, yaxınlaşmaq» mənasını verən «izdilaf» kökündən tutulan Müzdəlifə, Ərəfat ilə Mina arasında Hərəmin sərhədləri içində bir bölgənin adıdır. Mina ilə Müzdəlifə arasında «Mühəssir Vadisi», Müzdəlifə sərhədləri içərisində Quzəh dağı üzərində «Məşərülhəram» adında bir təpə vardır.

**Nisa təvafı** – Nisa təvafı həccin vacib əməllərindəndir. Lakin həccin rüknlərindən deyil. Onun qəsdən olsa belə tərk edilməsi həccin pozulmasına səbəb olmur. Nisa təvafı həm kişilərə, həm də qadınlara vacibdir. Onu yerinə yetirən kişiyə və qadına cinsi münasibətə girmək icazəli olur. Əgər kişi onu tərk edərsə, cinsi münasibətə girməsi ona haram olar. Əgər qadın da onu tərk edərsə, hökm belədir. Hətta məlumatsızlıq, yaxud unutqanlıq üzündən olsa belə, qalmışdı hələ qəsdən olsun. Nisa təvafı və onun namazı keyfiyyət və şərait baxımından həcc təvafı və onun namazı kimidir.

**Rəmy** – Lüğətdə «atmaq, qınamaq, yönəlmək» mənalarını verən «rəmy» sözü, dini bir məfhum olaraq hacıların qurban bayramı günləri Minada xalq arasında şeytan deyə adlandırılan yerlərə (cəmrələrə), qaydasına uyğun olaraq, xırda daşlar atmalarını ifadə etməkdədir. Bu əmələ «rəcm» («daşqalaq etmək») də deyilir.

**Səfa və Mərvə** – Kəbənin şərqində iki təpənin adıdır. Bu gün Məscidülhəramın divarına bitişikdirlər. Həcc əməllərindən olan səy bu iki təpə arasında yerinə yetirilir.

**Səy** – Lüğətdə «çalışmaq», «işləyib qazanmaq», «cəhd etmək», «nəzərdə tutmaq», «qaçmaq» və «yerimək» mənalarını verən səy dini bir termin olaraq, həcc və ümrə əsnasında Kəbənin şərq tərəfindəki Səfa və Mərvə deyilən iki təpəciyin arasında, Səfadan başlayıb Mərvədə tamamlamaq üzrə yeddi dəfə gediş-gəlişi ifadə edir.

**Təqsir** – Ümrə və yaxud həcc ziyarətini yerinə yetirmək üçün ehram bağlayan şəxsin müəyyən ibadətləri icra etdikdən sonra ehramdan çıxmaq üçün qayçı ilə tükünü, yaxud saqqalını, yaxud bığını bir qədər kəsməsinə deyilir.

**Təvaf** – Lüğətdə «bir şeyin ətrafına dolanmaq və dönmək» mənasını verən təvaf dini bir məfhum olaraq, Həcərüləsvədə paralel olan nöqtədən başlayaraq Kəbəni sol tərəfdə saxlamaqla yeddi dəfə onun ətrafına fırlanmaqdır.